**UOT 1(091)** **səh. 69-77**

# İSLAM MƏDƏNİYYƏTİNİN FƏLSƏFİ-NƏZƏRİ ASPEKTLƏRİNƏ METODOLOJİ YANAŞMA PRİNSİPLƏRİ

**Rasim Məcidov**
Dissertant, Bakı Dövlət Universiteti, **Azərbaycan**
mecidov.68@mail.ru
https://orcid.org0000-0001-7517-4986

**Xülasə.** Məqalədə İslam mədəniyyətinin unikallığı, universallıq prinsipləri və dini-milli ideyalarının qarşılıqlı münasibətlərinin metodoloji yanaşma prinsipləri fəlsəfi aspektdən təhlil edilmişdir. Müəllif nadir dünya dini sayılan İslam dininin yaranmasına, onun fəlsəfəsinin müxtəlif mədəni qapanmaları məhv edən dəyişikliklərə, bəşəriyyətə, ümumbəşəri dəyər və ideyalara dair təsəvvürlər formalaşdırmasına diqqət çəkir. İslam ideyalarının milli mədəniyyətlərdə özünəməxsusluq və universallıq prinsipləri inteqrasiya, qarşılıqlı təsir, qarşılıqlı bağlantı və bir-birinə nüfuz sayəsində canlı dialektik vəhdətdə olmağa imkan verir. Yekun olaraq göstərilir ki, qlobalizmin inkişafı şəraitində yeni sosial-mədəni mühit milli mədəniyyətlərin unikallığına və universallığına təsir edərək, dialoqa, humanizmə, mədəni müxtəlifliyin qorunub saxlanmasına hazır olmağı zəruri edir.

**Məqsəd:** İslam mədəniyyətinin fəlsəfi-nəzəri aspektlərini və onun universallığını fəlsəfi aspektdən araşdırmaq.

**Metodologiya:** Problemə metodoloji yanaşma prinsipləri, hissə və tam, vahid və ümumi, hərəkət və inkişaf, müqayisəli təhlil üsullarından istifadə edilmişdir.

**Elmi yenilik:** İslam mədəniyyətində olan unikallıq və universallıq probleminin nəzəri, funksional və praktiki aspektdən tədqiqinə cəhd edilmiş və bir çox islam ölkələrində onun hansı metodlarla inkişaf etdirilməsi prinsipləri araşdırılmışdır.

**Açar sözlər:** islam mədəniyyəti, unikallıq, universallıq, millətçilik, mədəni müxtəliflik, şəriət, tolerantlıq, qlobal transformasiya, dialoq.

**Giriş.** Yaxin və Orta Şərq ölkələrinin müasir inkişaf mərhələlərində çətin və çoxqütblü problemlərin tədqiqat obyektinə çevrilməsi olduqca aktualdır. İslam mədəniyyətinin unikallığı yalnız onun təkrarsız, fərqli, nadir, özünəməxsus xüsusiyyətlərini əks etdirmir, o həm də bütövlükdə bəşər sivilizasiyasının universal mədəni müxtəlifliyinin tərkib hissəsi olan bir fenomendir. Dünyada unikallıq və universallığın vəhdəti kimi çıxış edən islam mədəniyyəti çoxəsrlik mədəni ənənələri və irsi ilə, ideal tolerantlıq dəyərləri ilə şöhrət qazanmışdır. Çağdaş dünyamızda islam dininin mədəni sərvətlərinin zənginliyi, universallığı və unikallığı, mədəni-tarixi özünəməxsusluğu, milli-mədəni əhəmiyyət kəsb edən maddi və mənəvi mədəniyyət abidələri qorunub saxlanılır və gələcək nəsillərə ötürülür. Bu günün özündə islam mədəniyyətinin və unikallığının qorunub saxlanılması prioritet məsələlər olaraq qalmaqdadır. Çünki dünya xalqları nadir və təkrarsız olan Quran ayələrini yenilik və yaradıcılığın əsas mənbəyi kimi görür və əksər milli mədəniyyətlərin inkişafında unikallığı və universallığı özündə əks etdirir.

İslam dininin zəngin tarixi-fəlsəfi ənənələri vardır və bu ənənələrin dini-mədəni dəyərlər sistemində öyrənilməsi və tədqiqi dünya alimlərinin əsas vəzifələrindən biridir. Azərbaycan Prezidenti İ.Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfələr verir. Bu məsələ bizim üçün prioritet məsələlərdən biridir. Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Azərbaycan xalqı əsrlər boyu öz milli mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir" [2]

Məqalədə qarşıya qoyulan məqsədin reallaşdırılması ilk növbədə aşağıdakı *vəzifələrin* yerinə yetirilməsi tələbini irəli sürür:

- mövzuda müsəlman ölkələrində milli və dini kontekstdə baş verən hadisələrə fəlsəfi-metodoloji yanaşma və bu problemin müasir elmi-nəzəri əhəmiyyətinin müəyyən edilməsi və təhlili;
- bu ölkələrdə baş verən proseslərdən irəli gələrək islam mədəniyyətinin oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, eyni zamanda müasir islamın siyasi formasının təkamül yolunu öyrənməklə, müasir dövrün reallığına cevrilən dini millətçiliyin ideya və düşüncələrinin mahiyyətini izah etmək;
- islam və millətçilik ideyalarının tarixi-fəlsəfi təkamülü nəticəsində müxtəlif cərəyanların yaranması və milli, dini, cöğrafi baxımdan fundamental cərəyana çevrilməsi prosesini təhlil etmək;
- islamın ayrı-ayrı xalqların milli düşüncə sisteminə təsir etməsi yollarının fəlsəfi əsaslarını və müsəlman dünyasının inkişaf strategiyası konsepsiyasının başlıca xüsusiyyətlərini araşdırmaq;
- müsəlman ölkələrində səriət və sekulyarizm problemlərinin qarşılıqlı münasibətlərini və bu iki sistemin hansı tarixi- fəlsəfi müstəvidə paralel hərəkət etməsini tədqiq etmək;
- dünyada siyasi islam və islam layihəsi haqqında olan məlumatlara, islam hüquq sisteminin institutlaşdırılma proseslərinə və fəlsəfi metodoloji aspektlərinə nəzər salmaq;
- islamla bağlı müxtəlif siyasi doktrinaların, ideyaların və konseptual yanaşmaların fəlsəfi təhlilini həyata keçirmək, onların praktik tətbiqi modellərini təsvir etmək.

Müasir fəlsəfi ədəbiyyatda, mədəniyyətlərdə universallığın və unikallığın qarşılıqlı xüsusiyyətləri məsələsi hələ kifayət qədər öz nəzəri həllini tapmamışdır. Buna görə də XXI əsrin əvvəllərində islam mədəniyyəti ideyalarının milli mədəniyyətlərin unikallığı və universallığı kontekstindən öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Müsəlman dünyasında islami dəyərlər sisteminin yaradılması və inkişafında milli mənsubiyyətindən, dilindən, dinindən və mentalitetindən asılı olmayaraq, bir çox etnoslar iştirak edirlər. Bu mənada dünyanın unikal mədəniyyətinə malik olan islam öz universal mənəvi-mədəni dəyərlər sistemi ilə digər sivilisaziyalardan əhəmiyyətli dərəcədə fərqlənir.

**İslam mədəniyyətinin siyasi-nəzəri aspektlərinə metodoloji yanaşma prinsipləri**

Qlobal siyasi mədəniyyət müstəqil inkişaf edən dini - ənənəvi cəmiyyətlər toplusuna fenomenal surətdə təsir edir. Bu səbəb həmin cəmiyyətlərdə yaşayan insanların siyasi mədəniyyətində müəyyən problemlər yaradır və problemlərin artan xətt müstəvisində hərəkətini təmin edir. Dünyanın əsas konfessional dinləri sırasında öz ənənələrini qoruyub saxlamaqla XXI əsrin əsas dinlərindən birinə çevrilən islam dininin substrat mühitə (etiraz elektoratın, əzilənlərin ideyası, haqsızlığa qarşı mübarizə metodlarının mövcud olduğu mühitə: R.M.) keçidi artıq geridönməz bir fakta çevrilmışdir [10].

Buna əsas səbəb kimi əsrlər boyu davam edən islam ideyalarının millətçi ideyaları ilə tarixi-fəlsəfi kontekstdə mübarizəsini göstərsək yanılmarıq. Özünün xüsusi mahiyyətinə görə öz tərəfdarlarına güclü siyasi və mənəvi təsir göstərən islam dini digər sekulyar institutların öz cəmiyyətlərində itirdiyi mövqeyləri, daha dəqiq desək, milli ideya və siyasi konyuktura boşluqlarını doldurmaqda bütün imkanlarını işə salmışdır. Bəzi iri müsəlman dövlətlərində siyası hakimiyyəti ələ keçirən bu ideologiya dünyanın əksər siyasi elitası üçün sözün həqiqi mənasında fundamental çətinliklər yaradır. Müasir dünyada baş verən siyasi situasiyaları və bir çox spesifik xüsusiyyətlərə malik olan islam siyasi mədəniyyətini bilmədən onun fundamental ideyalarını konseptual şəkildə başa düşmək olmaz. Bu proses əvəllərdə dünya ictimaiyyətinin əksər hissəsində keçən əsrin birinci yarısından başlayaraq islam haqqında neqativ fikirlər fonunda formalaşmış və bir çox Qərb tədqiqatçıların sevimli mövzusuna çevrilmişdir: “*Cəmiyyətdə siyasi islamın tamamilə totalitar olması haqqında yekdilliklə rəy formalaşmış və islam dininin heç bir demokratik başlanğıca malik olmaması sübuta yetirilmişdir*” [3, s.6].

Alman filosofu Maks Veberin bu sözləri XX əsrin sonunda həmin dövrdə baş vermiş hadisələrə və müəyyən həqiqətlərə söykənmişdir və bu səbəbdən XXI əsrin əvvəllərindən başlayaraq siyası islamın öyrənilməsi, metod və metodologiyasına xüsusi diqqət yetirilməsi geniş diskussiyalara yol açmışdır. İctimai və siyasi normativlərin müəyyən olunmasında əsas istinad mənbəyinin Quran və Sünnə olması prinsipləri və müasir müsəlman filosofu Əli Şəriətinin “*hər bir müsəlmanın ixtiyarı var ki, klassik islam ilahiyyatı tərəfindən dəqiqləşdirilməmiş məsələlərin müzakirəsini demokratik qaydalar əsasında aparsın*” sözləri bir daha bu istiqamətdə aparılan diskussiyaları genişləndirmişdir [11]. Siyasi islam və ya Qərb mənbələrində *islamizm* sözü ilə təqdim olunan konsepsiyanın inkişafı XIX əsrin axırları və XX əsrin bütün onilliklərində davamlı surətdə baş vermişdir.

Ərəb millətçiliyi (əl-qövmiyyə, əl-ərəbiyyə, - R.M) ideologiyası ilkin mərhələlərdən dünyəvi xarakterə malik olub geniş ərazilərdə yaşayan və ümumi dilə mənsub olan insanları özündə birləşdirir. Bu ideyalar, əsasən, Osmanlı imperiyasında başlanan siyasi və iqtisadi silkələnmələr dövrünə təsadüf edirdi və XX əsrin əvəllərinə qədər , daha dəqiq desək, 1909-cu ildə Fransanın paytaxtı Parisdə Gənc Ərəblər Cəmiyyəti ( Əl-Fətat) təşkilatının yarandığı günə qədər imperiyadaxili mədəni muxtariyyət tələbləri ilə mövcudluğunu davam etdirirdi. Bu ideyaların ilkin rüşeymləri Birinci Dünya müharıbəsinə qədər əksmüstəmləkə xarakteri daşımış, sonrakı mərhələlərdə millətçi və sosialist ideyalarının meydana çıxdığı illərdə müəyyən mənada kölgədə qalmışdır. Lakin Birinci Dünya müharibəsindən sonra Osmanlı imperiyasının xarabalıqlarında meydana gələn bəzi müsəlman dövlətləri Qərbin liberal-demokratik prinsiplərini, siyasi institutlarının konsepsiyalarını öz dəyərlər sisteminə daxil etdikdə bir çox qəribəliklər meydana çıxmışdı.

Bu siyası qəribəliklər İkinci Dünya müharibəsindən sonra Yaxın Şərqdə əksər ərəb dövlətlərinin sosialist dövlət sisteminə üstünlük verməlıri ilə özünü bir daha göstərdi. 1948-ci ildə İsrail dövlətinin elan olunması və buna qarşı bütün Ərəb dünyasında hərbiləşdirilmiş millətçiliyin meydana çıxması Yaxın Şərqin siyasi ideologiyasına, sosial-fəlsəfi identikliyinə, bir sözlə, tarixi-fəlsəfi inkişafına yeni təkan verdi [13]. Xarici faktorlara görə əksimperialist və panərəbizm xarakterinə, daxili faktorlara görə isə ərəb sosializminə söykənən ərəb millətçiliyi dörd əsas tarixi – fəlsəfi paradiqma ilə formalaşırdı.

Birinci paradiqma **Ən Nəxdə** (əl-sahva: - R.M ) oyanış ideyasının yaranması Rifaa Rafi ət-Təhtəvinin (1801-1873) adı ilə baglı olub, XIX əsrin sonu XX əsrin əvvəllərində Osmanlı imperiyasında başlanan Tənzimat dövrunə təsadüf edir. Uzun müddət Fransada yaşayan Təhtəviyə vesternləşmə ideyalarının güclü təsiri olmuş və Misir cəmiyyətinə Avropa mədəniyyətini təlqin etmək cəhdləri fasiləsiz xarakter almışdır. Bu, əsasən, Avropadan götürülmüş parlamentarizm , konstitusionalizm və millətcilik ideyalarının ərəb dünyasına yeni bir ideya kimi təqdim edilməsindən ibarət olmuşdur. Sonrakı mərhələdə ikinci paradiqma **ərəb sosializmi** (əl- iştirakiyyə: - R.M) ideyası 1947-ci ildə Mişel Əflaki (1910-1989) tərəfindən irəli sürülmüş və onun əsasında BƏƏS partiyası yaradılmışdı. Bu ideyalara əsasən ərəb millətçiliyi yalnız sosial sistemlərin içində öz birlik və azadlığını tapa bilər, lakin ənənəvi marksizmi, ateizmi, beynəlmiləlçiliyi, materializmi rədd edən Əflaki bütün bunları panərəbizmə zidd sayırdı. Üçüncü paradiqma **Respublikaçılıq** (cəmahiriyyə, xalq kütlələrinin hakimiyyəti: - R.M) ideyası Liviyanın dövlət xadimi Müəmmar Qəzzafi (1961-2011) tərəfindən əsaslandırılmış və xalq hakimiyyətinin mühüm elementlərini özündə birləşdirmişdi. Bu konsepsiyaya əsasən ənənəvi dövlət institutları ləğv edilərək onların yerində xalq komitələri və xalq konqresləri fəaliyyət gostərməlidir. Bu kvazi təşkilatlar sonda Ümumxalq Konqresini təşkil edərək federativ kommuna sistemini ölkənin əsas sisteminə çevirirdi.

Sonuncu paradiqma **İnqilabçılıq ideyaları** bütün ideyaların kökündən dəyişdirilməsinə və yuxarıda göstərilən paradiqmaların tam fraqmentləşməsinə səbəb olmuşdur. Ərəb inqilabları XX əsrin əvəllərindən baslayaraq (1916-1918-ci illərdə əkstürk inqilabı nəzərdə tutulur: R.M) mərhələli olaraq 1936-1939-cu illərdə Britaniya mandatına qarşı Fələstində davam etmiş və sonda 2011-ci ildə Ərəb Baharı adı altında tarixə düşmüşdür.

İnqilabçılıq ideyalarının geniş vüsət almasının yeganə səbəbi Misirdə, Suriyada, İraqda, Sudanda, Əlcəzairdə, Tunis və Yəməndə baş verən hərbi çevrilişlər nəticəsində siyası zorakılığın əsasının qoyulması və bu hakimiyyətlərin demək olar ki, hamısının öz xalqlarının gözündə mənəvi legitimlik statusunu qazana bilməməsi olmuşdir. Nəticədə özlərini sekulyar, dünyəvi və demokratik elan edən bu dövlətlərin daxilində yarıleqal, yarıgizlin siyasi islam ideyaları və bu ideyalara uyğun tarixi-fəlsəfi paradiqmalar yaranmağa başladı. Bu ideologiyaya hər hansı bir yanaşma metodunu öyrənmək üçün bir az əvvələ qayıtmaq və siyasi islamın görkəmli nəzəriyyəçilərinin konseptual ideyaları ilə tanış olmağımız məqsədəuyğundur.

Siyasi islamın yaradıcılarından “Müsəlman Qardaşları” təskilatının əsas ideoloqlarından biri, yazıçı və filosof **Səyyid Qütbini** (1906-1966), “Camaat-i-İslam” partiyasının yaradıcısı və ideoloqu, Pakistanın görkəmli dövlət xadimi və tarixçi-filosofu **Əbul-əla Məudidini** (1903-1979), İran İslam İnqilabının lideri **Ayətolla Ruhulla Musəvi Homeynini** (1902-1989) göstərmək olar. Məudidi və Qutbi ideyalarının islamda sünni məzhəbinə təsir göstərməsini, Homeyni konsepsiyalarının şiə

məzhəbi ilə səslənməsi islam dünyası üçün yeni bir mərhələnin, yeni bir layihənin başlanğıcından xəbər verirdi [6]. Hər üçünün siyasi islam konsepsiyalarına yanaşma metodları, siyasi mübarizə vasitələri və islam dövləti yaratmaq baxışlarının eyni istiqamətə yönəlməsinə baxmayaraq, keçmişdə baş vermiş tarixi-fəlsəfi paradiqmalar toplusu onların vahid ideoloji cəbhədən çıxış etmələrinə ciddi maneələr yaradırdı.

Belə şəraitdə böyük keçmişin və ideal gələcək konsepsiyalarının tədqiqı islam dinini qəbul etmiş və müsəlman toplumunu yaratmış xalqların, etnosların tarixi-fəlsəfi konyukturası, gücü, milli və dini özünüdərketmə prinsipləri bu problemi ərəb-müsəlman siyasi vektorundan müəyyənləşdirilmə tələbini ortaya qoyur. Ərəb-müsəlman terminologiyası və siyasi düşüncə sistemi yarandığı gündən demək olar ki, şərti xarakter daşıyır. Bu terminin adı altında müxtəlif xalqların siyasi düşüncəsi həmin dövrlərdə Ərəb Xilafətinin tərkibinə daxil olan xalqların, etnosların siyasi yaradıcılığının tərkib hissəsi kimi sayılmış və bu günlərə qədər də Yaxın Şərqin siyasi konyukturasının əsas elementinə çevrilmişdi [14]. Bu konyuktura həmin dövrdə siyasət və dövlət münasibətlərinin siyasi islam kontekstində öyrənilməsi üçün üç əsas yanaşma metodunu ortaya çıxarır.

**Normativ-hüquqi yanaşma metodu**

Bu yanaşma tamamilə müsəlman hüquq sisteminin təməlində yaradılan siyasi və hüquqi doktrinalara söykənərək xüsusi siyasi təlim yaradır və müxtəlif teokratik, yəni Xəlifət, İmamət formalı dövlət quruluşlarını qidalandıraraq onlara həyat mövcudluğu verir. Bu metod nüfuzlu islam alimləri, fiqh elmini mükəmməl bilən şeyxlər tərəfindən işlənilir və eyni zamanda müstəqil inkişaf edərək heç bir kənar təsirə məruz qalmayaraq öz ünikallığını qoruyub saxlayır. Bu istiqamət əsasən islamın şəriət prinsiplərinə əsaslanan hüquqi nəzəriyyələrə söykənir.

Tarixən bu ideoloji proses xilafət sistemində fəaliyyət göstərən ilahiyyatçıların, hüquqşünasların və nüfuzlu islam alimlərinin əsrlər boyu işləyib hazırladığı dövlətçilik doktrinalarına söykənmişdir. Sonrakı mərhələlərdə Xilafətin dağılması prosesi bu sistemi yaradan islam alimlərində sistem formalaşdıran bəzi elementlərin bu sistemin daxilində mükəmməl olmaması şübhələrini yaratmış və bu proses onları ilkin islam dövründə mövcud olan "əməvi xəlifələr" konsepsiyasına bir daha nəzər salmağa məcbur etmişdir. Bu çərçivədə olan yanaşma sonda islamda dövlət və siyasət konsepsiyasını formalaşdırırdı. Nəticədə bu konsepsiya islam təlimini birbaşa siyasi doktrinalarla uyğunlaşmağa məcbur edir, yeni təlim əsasında ümumi islam təliminin mahiyyətini tamamilə siyasiləşdirirdi.

İslamda hakimiyyət konsepsiyası və dövlətin yaradılması prosesi Allah iradəsinin təcəssümü kimi qəbul edilir. İlk baxışdan bu sistem dövlətçilik haqqında olan ideyalara rasional yanaşmanı rədd etməklə, dövlətin daxilində institutlaşmanı müəyyən mənada şərtləndirirdi. Lakin islam dininin ilkin formalaşdığı dövrlərə nəzər saldıqda məlum olur ki, yeni yaranan institutları, o cümlədən Xilafət və İmamət ideyalarının daşıyıcıları olan institutları yalnız rasional ideyalarla (insan idrakı ilə dərk olunan: R.M.) qidalandırmaq olar. Orta əsrlərdə mövcud olan siyasi-hüquqi bazanı patriarxal cəmiyyətin ideal yaşayışının təmin edilməsinə yönəltmək və xilafət ideyalarının aliliyinin təminatçısına çevirmək vəzifəsini yalnız yeni yaranan institutların rasionalizmə transformasiyası yerinə yetirə bilərdi.

İslam dövlətini yaratmaq istəyən nəzəriyyəçilərin əksəriyyəti hesab edirdi ki, dövlət və cəmiyyət, siyasət və din nəzəriyyələri sübutsuz əsas götürülən postulatlara söykənməli və onların vahidliyi şəriət normaları əsasında qorunub saxlanılmalıdır. Bu normalar cəmiyyətdə mövcud olan sosial və mənəvi həyatın bütün sahələrinin universal tənzimləyicisinə çevrilməlidir. Nəticədə Quranla əsaslandırılan bir çox konsepsiyalar kənar təsir vasitəsilə transformasiyaya uğrayır, dövlətçilik ideyalarının deqradasiyası və həqiqi islam dəyərlərindən uzaqlaşma halları intensivləşirdi.

**Etik-fəlsəfi yanaşma metodu**

Bu yanaşma əsasən siyası-fəlsəfi ideyalara söykənərək antik dövrün siyasi konsepsiyalarını özündə ehtiva edirdi. Lakin qeyd etmək lazımdır ki, bu yanaşmada istifadə edilən empirik ideyalar istənilən anda rasional və mistik ideyalarla toqquşur, nəticədə empirizmə xas olan xüsusiyyətlər ilk növbədə təcrübənin aliliyi, dərketmə hissiyatı və rasional düşüncənin azaldılması prosesi baş verir. Bu mənada bir çox müsəlman alimləri yuxarıda göstərilən metodlardan geniş istifadə etmişlər.

Müsəlman dünyasında etik-fəlsəfi metodların görkəmli nümayəndələrindən Əl-Fərabini (872-951), İbn-Sinanı (980-1037), İbn-Rüşdü (1126-1198) və b. nümunə kimi göstərmək olar. Onlar hesab

edirdilər ki, islam dinini və islam fəlsəfəsini vahid siyasi təlimə çevirməyin ən optimal yolu onların arasında olan zaman, məkan və uyğunlaşma paradiqmasının tapılması olardı. Belə ki, etik-fəlsəfi ideyaların mərkəzində həmin dövrün intellektual cərəyan nümayəndələrinin konsepsiyaları ilə yanaşı, bu konsepsiyaların varisi kimi, antik dövrün klassik yunan fəlsəfəsinin çıxış etməsi də diqqəti cəlb edir [7]. Bu varislik prinsipi orta əsrlərdə mövcud olan islam fəlsəfəsində və onun misilsiz nümayəndələrinin əsərlərində özünü göstərmiş, eyni zamanda ərəb-müsəlman mədəniyyətini öz kulminasiya nöqtəsinə çatdırmaqla yanaşı, heç vaxt onu dinlə qovuşdurmamışdır.

Aydındır ki, dini-fəlsəfi elmin nümayəndələri heç vaxt şəriət qaydalarını inkar etmirdilər və mühafizəkar islam fiqh məktəblərinin nümayəndələrindən fərqli olaraq şəriəti sistemli şəkildə təkmilləşdirirdilər. Onların yanaşmasına görə, sosial-siyasi sistemlərdə mövcud olan şəriət qanunları bu sistemlər üçün heç də əsas deyil, yalnız həyat fəaliyyətini müəyyən normalara salan köməkçi qanunlar toplusudur. Bu sistemin köməyi ilə cəmiyyətdə ilk növbədə mənəvi qaydaların standartlarını müəyyən etmək və onları mükəmməl bir sistem kimi mövcud sosial sistemə çox asanlıqla daxil etmək olar. Nəticədə sistemə uyğun yaradılan ideal islam dövləti islam qanunlarını qoruyar və istənilən ideal cəmiyyət quruculuğunu məntiq və idrak əsasında xöşbəxtlik və rifaha uyğun təkmilləşdirərdi.

**Mənəvi-didaktik yanaşma metodu**

Bu yanaşma metodu ənənələrə söykənərək siyası janr əsasında ədalətli hakim, ədalətli şah obrazlarını apologetik səviyyəyə qaldırmaqla, müsəlman dünyasında siyasi hakimiyyət mexanizmlərini fərdi həyat sistemindən ayırır və onu universal dövlət sistemi kimi yaradaraq aliləşdirir. Bu cür yaranan dövlət sistemləri ilahi hökmlərlə səciyyələndirilir, bəzi hallarda isə sistemi islamdan kənarlaşdıraraq islamdan əvvəlki dini etiqadlarda mövcud olan hökmdarlar haqqında olan apologetikaya meyilləndirirdi.

Bu cür qurulan hakimiyyətlərin sosial-siyasi strukturları, hakimlərin səlahiyyətləri və təqib etdiyi məqsədlər ilahi qüvvənin arzuları kimi qələmə verilirdi. Təbii ki, ümumilikdə qeyd etmək lazımdır ki, müsəlman Şərqində mövcud olan siyasi düşüncənin predmeti, siyasi-hüquqi nəzəriyyələri çətin fəlsəfi-tarixi inkişaf yolu keçməklə, müasir ideyalar toplusunun yaradılmasında müstəsna rol oynamışdır. Siyasi və hüquqi nəzəriyyələrin vahid predmet çərçivəsində birləşdirilməsi bu nəzəriyyələrin daxili qarşılıqlı münasibətlərini çox asanlıqla şəriət qanunları ilə uzlaşdırırdı. Nəticədə sosial həyatın bütün sahələrində tətbiqi mexanizmlər didaktik metodların təsir vasitələrini gücləndirirdi. Belə demək olar ki, bu konsepsiya siyasətin, hüququn və dinin institusional səviyyədə dövlətə lazım olan sakral funksiyaları yerinə yetirir və onun, yəni dövlətin spesifik ideoloji formalarını müəyyən islam qanunları ilə tənzimləyir. Yuxarıda qeyd edilənlər qlobal və sürətlə modernləşən dünyada islam siyasi düşüncəsinin ilkin mərhələsi sayılan inqilabi situasiyanı və siyasi fiqh elminin əsaslarını yaradır. İslam alimlərinin əksəriyyəti dünyanın müxtəlif yerlərində islam dövlətinin bu və ya digər halda yaradılmasının qəti əleyhinə çıxış edirdilər. Bu konsepsiyanın müasir islam ideologiyasına, daha dəqiq desək, islamçılq ideyalarına göstərilən təsir gücünü artırmaq məqsədilə iki mühüm tezisi irəli sürməyimiz yerinə düşərdi.

1. İslam prinsiplərinin universal olması.“İslam dini istənilən vaxt və istənilən məkan üçün universaldır”. Bu sözləri Misir universitetinin professoru Hüseyn Munis “Ərəb sivilizasiyasının dini və inkişafı” kitabında yazmışdır. O qeyd etmişdir ki, islam doktrinaları, qanunları və etik normaları bütün mərhələlərin inkişafı və insan davranışları üçün güclü stimul yaradır. Bu doktrinanı sivilizasiya nəzəriyyələrinin banilərindən biri sayılan Arnold C.Toynbi (1889-1975) bir daha təsdiq edərək yazırdı: “*Ali dinlər və bu dinlər əsasında formalaşan fəlsəfələr insan davranışlarının praktiki qaydalarını göstərir. Onların hamısı insana ali məqsəd kimi dözümlülük, nəfsə nəzarət və digər universumlar üzərində tamah məqsədilə hakim olmaq cəhdlərinin qarşısını almaq mexanizmlərini verir*” [5, s.335].

2. Islam dövlətinin yaradılması ideyası. Bu tezis bütövlükdə yuxarıda göstərilən tezisə bu və ya digər halda əsaslanaraq öz fundamental prinsiplərini ortaya qoyur. Birinci tezisə əsasən islam universalizmi dövlətin bütün sahələrində birlik strukturu yaradır və təriqətçiliyi, parçalanmanı və ən əsası eqoizmi rədd edir. Bu barədə İran İslam Respublikasının banisi Ayətolla Homeyni yazırdı: “*Hər kimsə müsəlmanları şiə və sünni məzhəbinə ayırmaq istəyirsə, onun özünün bu məzhəblərin heç birinə*

*aidiyyatı yoxdur və onu dinsiz saymaq lazımdır. Elə bu səpkidə Sudanın dini lideri Həsən ət-Turabi çıxış edərək bildirmişdir ki, biz nə sünni, nə də şiəyik. Biz heç bir məzhəblərə ayrılmamışıq*” [1].

Bu cür yanaşma islamçılıq ideyalarının vahidliyindən xəbər verir. Rusiya islamşünası A.V. Malaşenko (1951) bu haqda yazırdı: “*İslam dininin tərkibində mövcud olan sünni və şiə variantları arasında heç bir prinsipial fərq yoxdur. Yeganə əhəmiyyətli fərq mülayim islam (bu islamla müasir dövlət strukturları tam əməkdaşlıq edə bilər) və radikal islam (müxalifətçiliyə istiqamətlənərək ekstremizmə, terrorizmə və üsyankarlığa meyillənmə) arasındakı şaxələnməni göstərmək olar*” [9].

XX əsrin 70-80-ci illərindən başlayaraq islam ilahiyyatçıları islam ənənələrini müasir dövlət ideyaları ilə əlaqələndirmək və bu nəzəriyyələr əsasında şəriət qaydalarına söykənən praktiki dövlət qurmaq cəhdlərini açıq surətdə göstərməyə başladılar. İran İslam İnqilabının əsas ideoloqlarından biri sayılan Əli Şəriəti islam iqtisadiyyatı ideyalarını əsaslı doktrina formatına salmaqla, üçüncü inkişaf yolunu sosializm və kapitalizm inkişaf yollarına alternativ elan etdi. “Üçüncü dünya” ölkələri mövcud olan iki sistemdən kənar olduqları üçün “orta yol” ideyalarına çox böyük həssaslıqla yanaşmağa başladılar. İslam iqtisadiyyatının ən mühüm prinsipləri sayılan sinfi dünyanın və bütün müsəlmanların bir-birinə qarşılıqlı yardımı, faizsiz müavinətin (riba: R.M.) və kasıbların lehinə tutulan verginin (zəkat: R.M.) qanun şəklində olması vacib sayılırdı. Bu qanunlar istənilən cəmiyyətdə istənilən sosial gərginliyi aradan qaldıracaq və bütün zamanlarda öz elastikliyini qoruyub saxlayacaqdır [9].

Yuxarıda qeyd etdiyimiz islam universalizmi ilk olaraq insanda nəfsə nəzarət mexanizmini yaradır və bu mexanizm insanın öz çevrəsində olan sosial varlıqlara qarşı ədalət prinsiplərini tamah məqsədli digər universumlar üzərində hakim olmaq arzusu ilə əvəz edir. Siyasi hakimiyyətə gəlincə isə, ideal islam cəmiyyəti yalnız xilafət forması ilə deyil, imamət forması ilə də müzakirə obyektinə çevrilə bilər. Bu nəzəriyyələr əsasında tarixi şərait imkan verərsə, müsəlmanlar nəhəng islam cəmiyyətlərini və yaxud Böyük Britaniyada, Fransada və Almaniyada olduğu kimi, iri və funksional müsəlman cəmiyyətlərini yarada bilərlər. Məsələ ondadır ki, universalizmə söykənən bu ideyalar vasitəsilə təkallahlılıq prinsiplərinə inanan müsəlman cəmiyyəti dünya tarixinin mərkəzinə keçir və bu prinsip həmin cəmiyyətə, bütün bəşəriyyətə ədalətli və seçilmiş bir ümmət kimi sahiblik etmə hüququ qazandırır. Eyni zamanda həmin status Peyğəmbərə (Məhəmməd əleyhissalama) verilir, lakin bu status əksinə müsəlman ümmətinin özünə qarşı şahidlik funksiyasını (Qurani-Kərim vasitəsilə: R.M.) daşıyır. Bu konsepsiyadan məlum olur ki, səlis düzüm və yaxud ümumi ardıcıllıq xaricdən gələn faktoru daxili substansiyaya cevirir. İntellektual-nəzəri mühitlərin ekspertləri qeyd edirlər ki, islam cəmiyyətləri bütövlükdə istənilən mühitə uyğunlaşma mexanizmlərinə malikdir. Ona görə də tarix boyu islam dininə qarşı olan əkstəbliğata, basqılara, istibdada baxmayaraq, o, (islam dini: R.M.) dünyanın bütün bölgələrinə sürətlə yayılır və Hindistanda, Afrikada, Çində, Avropa və Amerikada yaşayan insanların əksəriyyəti üçün cəlbedici faktora çevrilir Düzdür, bu faktorun daxilində bir çox problemlər, nöqsanlar olduğuna baxmayaraq ümumdünya, ümummilli ideyaya çevrilən monoteizm ideyaları ilahi qüvvənin himayəsi altında öz məntiqi nəticəsinə sürətlə yaxınlaşır.

Digər ekspertlər islam dünyasının siyasi staqnasiyadan çıxdığını xüsusi qeyd edirlər, tarixi şəraitdən asılı olaraq müsəlmanların islam dövlətinin və yaxud özünü idarə edən islam icmalarının yaradılması vaxtının çatdığını göstərirlər. “Bu cür nümunələrə artıq bir çox Qərb dövlətlərində, yəni Böyük Britaniyada, Fransada, Almaniyada rastlaşmaq olar ki, bu icmalar həmin dövlətlərin tərkibində müstəqil siyasi subyektlərə çevrilməyə çalışırlar [4].

Bu siyasi konsepsiya xüsusi olaraq ümumdünya “islam beynəlmiləl” ideyalarına söykənir və bütövlükdə fiqhə, yəni islam hüquq elminə istinad edir. Konsepsiyanın əsas əkstezisi millətci ideyaların tamamilə islam ümmətinə zərərli olması və islam cəmiyyətlərinin deqradasiyaya məruz qoyulması ilə əsaslandırılır. İlkin mərhələdə islamlaşdırılma dövlətin səyləri nəticəsində “yuxarıdan” başlanılır, ali suveren hakimiyyət isə yalnız Allahın səlahiyyətlərində olur. Hökumət isə Allahın valisi kimi, yer üzündə idarəetmə funksiyalarını yerinə yetirir. Şəriət qanunları ölkənin əsas qanunları hesab olunur. Mövcud qanunvericilik isə şəriət qanunlarına ziddiyyət yaratmır və dövlət islam qanunlarının sərhədini kecmir. Bu ideyalar öz mahiyyətinə görə heç də yeni deyildir. Belə ki, altı əsr mövcud olmuş Osmanlı imperiyası və mövcudluğunun sonuna yaxın xilafətə çevrilmiş bu qurum pis, ya yaxşı, bu ideyaları həyata kecirməyə cəhd gostərmisdi. Lakin dünyada baş verən siyasi proseslər və həmin proseslərdən doğan səbəblər ilk növbədə bu xilafətin tərkibində yaşayan xalqların fədakarcasına

müqavimətinə baxmayaraq, güc mərkəzlərinin təsiri altında bu ideyaların iflası yuxarıda göstərilən cəhdlərin təsirini sıfıra endirmişdi [12].

İkinci Dünya müharibəsindən sonra dünyada mövcud olan müstəqil müsəlman dövlətləri (onları suveren dövlət adlandırmaq istənilən halda mübahisə mövzusu ola bilər: M.R.) və onların hakimiyyətinə gətirilmiş elitalar yalnız "müsəlman küçəsinin" idarə olunmasına xidmət edirdi. Bu xidmətin yalnız bir məqsədi "ümumdünya islam lahiyəsinin" baş tutmaması və islam həmrəylik ideyalarının hər bir müsəlman dövləti üçün ümummilli ideyaya çevrilməməsi olmuşdur. İslam cəmiyyətləri artıq dünya xalqları sırasında əzilən, istismara və təqiblərə məruz qalan imicini qazanmışdır.

"*Yaradılmış bu sistemi Allahın rəhmi kimi də qəbul etmək olar, belə ki, islam dini böhran vəziyyətində daha da inkişaf edir və islam hərəkatlarının nüfuzu daha da artır. Bu anlarda onlar (müsəlmanlar: M.R.) fəal surətdə Məhəmməd peyğəmbər və onun tərəfdarlarının dövründə olan həqiqi və təmiz islamın qayıtması tələbini irəli sürürlər. Onlar kənardan gələn və onlara öz diktəsini edən yabançılara qarşı güclü müqavimət göstərirlər*" [8, s.216]. Müsəlman dünyasında sosial etiraz həmişə dini xarakter daşımışdır və bu müqavimət hərəkətləri alovlandığı andan sönməyə məhkum olmuşdur. Qərb dünyasının islam tarixi və mədəniyyəti üzrə ixtisaslaşmış mütəxəssisi Bernard Lyuis yazır:

"*Müxtəlif ölkələrdə yaşayan və müxtəlif dillərdə danışan müsəlmanları müqəddəs keçmişin yaddaşı yaxınlaşdırır, onlara ümumi cəmiyyətin üzvlüyünü təlqin edərək ümumi taleyi yaşaya-caqlarını,bunun taleyin hökmü olduğunu ğöstərirlər. Özünü dərketmə prosesi Qərb dünyasında xalqın və yaxud dövlətin səlahiyyətində olmasına baxmayaraq, müsəlman dünyasında bu dəyərlər sistemi dini-siyasi cəmiyyət formatında qəbul edilir*" [8, s.216].

Beləliklə, islam dini bütün müsəlman ölkələri üçün konsensus xarakteri daşıyır və siyasi səhnədə istənilən an geniş kütlələri səfərbər etməklə, istənilən siyasi proseslərə təsir etmək imkanlarını daim qoruyub saxlayır. Əsas məsələ islamda olan subyektivliyi mövcud siyası-tarixi proseslərə transformasiya edib qanunauyğun və səbəbiyyət əlaqələri (determinizm: R.M.) vasitəsilə yeni siyasi iradə mənbələrinə yaxınlaşdırmaq lazımdır. Başqa sözlə desək, islam cəmiyyətləri passiv-əzabkeş girovluğundan çıxmalı və fəal-amiranə bir mərhələyə keçməlidirlər.

**Nəticə.** Beləliklə, islam mədəniyyətinin unikallığı, universallığı və onun tolerantlıq ideyalarının müasir hüquq sisteminə ehtiva olunması müasir fəlsəfənin aktual problemi olaraq qalmaqdadır. Onların vəhdəti ən ümumi və ya xüsusinin mütləqləşdirilməsini, unikallığın və ya universallığın inkar edilməsini deyil, bu prinsiplərin inteqrasiyasını, qarşılıqlı təsirini, qarşılıqlı qovuşmasını, bir-birinə təsir etməsini eyni zamanda birlikdə hərəkət etməsini tələb edir. Eyni zamanda, hər bir mədəni unikallıq tolerant mühitdə universallığı iddia edir, nəticədə zaman və məkan müstəvisində birləşən unikallıq və universallıq islam mədəniyyətinin yaradıcılıq potensialını gücləndirir və milli müxtəlifliyin vəhdətini reallaşdırır.

Problemin fəlsəfi - metodoloji təhlili bizə onu deməyə əsas verir ki, qlobal transformasiya şəraitində yeni sosiomədəni mühit formalaşır, mədəniyyətlərarası ünsiyyət, mədəni qütbləşmə, mədəni assimilyasiya, hibridləşmə milli mədəniyyətlərin unikallığına və universallığına təsir edir, tolerantlığı, dialoqa hazır olmağı, humanizmi, unikallığın və universallığın, mədəni müxtəlifliyin qorunub saxlanması əsasında inteqrasiyanı gücləndirərək identiklik böhranının aradan qaldırılmasını zərurətə çevirir.

## İstifadə olunmuş ədəbiyyat

1. Algar, H. The Roots of the İslamic Revolution. İslamic Foundation Press, 2001
2. Əliyev, İ. 2017-İslam Həmrəyliyi İli: "Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın açılış mərasimində iştirak edib // https://president.az/articles/view/26474.
3. Вебер М. Избранные произведения: пер. с нем. / сост., общ. ред. и послесл. Ю. Н. Давыдова; предисл. П. П. Гайденко. Moskva: 1990. 808 с.
4. Ежова А., Хизб-ут-тахрир – детская болезнь халифатизма в исламской политке. // URL: islam.ru/pressclub/analitika/hitabo

5. Диалог Тойнби-Икеда: Человек должен выбрать сам: [Перевод] / Арнольд Дж. Тойнби, Дайсаку Икеда. - Moskva: ЛЕАН, 1998. 445 с
6. Джемаль Г., Борьба за историю: исламский проект // URL: https://religion.wikireading.ru/230680
7. İmanov, H. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı: Elm, 2008. 210 s.
8. Lewis, B. From Babel to Dragomans: Interpreting The Middle East (англ.).
Oxford University Press, 2004. // URL: https://www.academia.edu/28542698/
9. Малашенко А.В., В поисках альтернативы: Араб. концепции путей развития. Й.; АН СССР, Ин-т востоковедения. Moskva: Наука, 1991. 209 с.
10. Mellon, J.G., İslamizm, Kemalizm and the Future of Turkey. // J.G Mellon. – Totalitarian Movements and Political Religions. 2006 Vol.7, no.1, p. 67-81
11. Pakistani model of diversity Rediscovering Jinnah s Vision. Jawad Sayed / – Lahor University of Managment Sciences
12. Старостина С.А., История мусульманского государства и права. Часть 1 (188 с.). Часть 2 (106 с.). / С.А. Старостина, В.П. Коряков – Калининград: КЮИ МВД России, 2002. s.188
13. Johnson, T. Islam: Governing Under Sharia. Deputy Editor Lauren Vriens. October 24.2011 // URL: http://www.cfr.org/
14. Khaled,Abou el Fadl.Rebellion and Violence in Islamic Law./Khaled Abou el Fadl.New York:Published in the United States of America by Cambridge University Press,2001.404 p.

## ПРИНЦИПЫ МЕТОДОЛОГИЧЕСКОГО ПОДХОДА К ФИЛОСОФСКО-ТЕОРЕТИЧЕСКИМ АСПЕКТАМ ИСЛАМСКОЙ КУЛЬТУРЫ

**Расим Меджидов**

**Резюме.** В статье, с философской точки зрения, анализируются: своеобразие исламской культуры, принципы универсальности, принципы методологического подхода к взаимоотношению религиозных и национальных идей. Автор обращает внимание на возникновение ислама, считающегося уникальной мировой религией — в философии которой, вследствие трансформации, разрушилась некая отчужденность, сформировав представления о человечности и общечеловеческих ценностях. Принципы уникальности и универсальности исламских идей (как моральная и национальная ценность) позволяют находиться в живом диалектическом единстве государственные образования (благодаря интеграции, взаимовлиянию, взаимному слиянию и взаимопроникновению). В заключении показано, что в условиях развития глобализма - новая социокультурная среда влияет на уникальность и универсальность национальных культур, обуславливая необходимость готовности к диалогу, гуманизму, сохранению культурного разнообразия.

**Цель:** исследовать философско-теоретические аспекты исламской культуры и ее универсальность с философской точки зрения.

**Методология:** использовались принципы методологического подхода к проблеме, часть и целое, единичное и общее, движение и развитие, методы сравнительного анализа.

**Научная новизна:** сделана попытка изучить проблему уникальности и универсальности в исламской культуре с теоретического, функционального и практического аспекта, исследованы принципы ее развития во многих исламских странах.

**Ключевые слова:** исламская культура, уникальность, универсальность, национализм, культурное разнообразие, шариат, толерантность, глобальная трансформация, диалог.

**THE PRINCIPLES OF METHODOLOGICAL APPROACH TO THE PHILOSOPHICAL AND THEORETICAL ASPECTS OF ISLAMIC CULTURE**

**Rasim Macidov**

**Abstract.**In the article, the uniqueness of Islamic culture, the principles of universality, and the principles of the methodological approach to the mutual relations of religious and national ideas are analyzed from a philosophical point of view. The author draws attention to the emergence of Islam, which is considered a unique world religion, and its philosophy as a result of the changes that destroyed various cultural closures, and formed ideas about humanity and universal values and ideas. The principles of uniqueness and universality of Islamic ideas in national cultures enable them to be in a lively dialectic unity thanks to integration, mutual influence, mutual fusion, and mutual penetration. In conclusion, it is shown that in the conditions of the development of globalism, the new socio-cultural environment affects the uniqueness and universality of national cultures, making it necessary to be ready for dialogue, humanism, and the preservation of cultural diversity.

**Purpose:** To investigate the philosophical-theoretical aspects of Islamic culture and its universality from a philosophical point of view.

**Methodology:** The principles of methodological approach to the problem, part and whole, unit and general, movement and development and comparative analysis methods have been used.

**Scientific novelty:** an attempt was made to study the problem of uniqueness and universality in Islamic culture from the theoretical, functional and practical aspects, and the principles of its development in many Islamic countries were investigated.

**Keywords:** Islamic culture, uniqueness, universality, nationalism, cultural diversity, Shariat, tolerance, global transformation, dialogue.

**Rəyçi: f.e.d., prof. Rəbiyyət Aslanova**